# Azərbaycan Xalq Cümhuriyyəti iqtisadiyyatının formalaşmasında neft amilinin müstəsna rolu

Tarixdən hər birimizə məlumdur ki, Azərbaycan hələ qədim dövrlərdən özünün "ağ" və "qara" nefti, zəngin neft ehtiyatları, mədənləri və quyuları ilə məşhur olub. Hələ qədim zamanlardan Bakı nefti Şimali Qaqfqaz, yaxın Şərq və Orta Asiya ölkələrinə aparılıb və onun satışından külli miqdarda gəlir əldə edilib. Əsrlərlə Azərbaycanla xarici dövlətlər arasında xarici ticarət əlaqələrinin qurulmasında, formalaşmasında və möhkəmlənməsində neft faktoru əsas aparıcı rollardan birini oynayıb. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda neft sənayesi milliləşdiriləndək 109 səhmdar cəmiyyət fəaliyyət göstərib. Onlardan 72-si rus kapitalına (240 milyon rubl) və 37-si isə ingilis kapitalına (100 milyon funt-sterlinq) məxsus olub. Nobel qardaşlarının neft sənayesinə qoyduqları kapital 30 milyon rubl təşkil edib. O dövrün ən varlı neft sənayesi sahibkarlarından olan mesenat İsa bəy Hacinskinin "Hacı-Çeleken" neft şirkətinin neft sənayesinə kapital qoyuluşu 1,25 milyon funt-sterlinq olub. Neft sənayesinin milliləşdirilməsi ərəfəsində Azərbaycanda 270 neft istehsal edən müəssisə, quyuların qazılması ilə məşğul olan 49 orta və kiçik firmalar, emalı ilə məşğul olan 25 firma, 100-dən artıq mexaniki sexlər, təmir emalatxanaları və sair fəaliyyət göstərib.

Tarixi faktlara və milli arxiv sənədlərinə görə, XIX əsrin 90-cı illərindən başlayaraq Rusiya İmperiyasında istehsal olunan neftin ümumi həcminin 85 faizi Bakının payına düşüb. Bu isə dünya neft istehsalının təxminən yarısını təşkil edib. Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycandan Rusiyaya əsasən neft və neft məhsulları, həmçinin pambıq, balıq, düyü, şərab, meyvə, xam ipək, gön-dəri, xalça və sair göndərilib, oradan isə taxıl, kartof, çay, qənd, bitki yağları, manufaktura malları, dəmir, meşə tikinti materialları, sement, aptek və kimyəvi mallar gətirilib. Rusiya ilə əmtəə mübadiləsi başlıca olaraq Vladiqafqaz dəmir yolu vasitəsilə həyata keçirilib. Neft və neft məhsulları isə əsasən dənizlə Həştərxana daşınıb. Məsələn, 1916-cı ildə Bakıdan aparılan və ümumi həcmi 408,8 milyon pud olan neft məhsullarının 366,4 milyon pudu Xəzər dənizi vasitəsilə daşınıb və bu da Xəzər dənizi vasitəsilə daşınan bütün əmtəə mallarının 89,6 faizini təşkil edib.

Lakin bütün bunlara baxmayaraq, Birinci Dünya müharibəsi, Rus İmperiyası ərazisində baş verən inqilablar, iqtisadi təhlükəsizliyin qorunmaması, xarici iqtisadi əlaqələrin pozulması və digər səbəblər üzündən Azərbaycanın neft sənayesində ağır vəziyyət yaranıb və neft hasilatı kəskin surətdə azalıb. Ona görə də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından sonra sosial-iqtisadi vəziyyətin normallaşdırılması üçün ilk növbədə neft sənayesinin ağır böhrandan çıxarılması tələb olunurdu. Çünki həmin dövrlərdə neft dünyanın ən önəmli hərəkətverici qüvvəsi olduğu üçün Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi iqtisadiyyatın əsas sahəsi sayılırdı. Bu baxımdan da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı ilk gündən bu sahədə konkret addımlar müəyyənləşdirdi. Azərbaycan Parlamenti neft istehsalını və satışını öz nəzarətinə aldı. Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti və Parlamenti neft hasilatının və emalının vəziyyətini vaxtaşırı təhlil etdi, dünya neft bazarını öyrəndi. Azərbaycan Parlamenti neft sənayesinin inkişaf etdirilməsi ilə bağlı olaraq dəfələrlə Hökumətin məruzələrini dinlədi, neft sənayesinin rentabelliyinin yüksəlməsinə yardım edən bir sıra qanunverici sənədlər qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il oktyabr ayının 1-də qəbul etdiyi qərarla neft sənayesinin və ticarət donanmasının "milliləşdirilməsi" haqqında Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi bütün qərarlar, sərəncamlar və dekretlər qeyri-qanuni hesab olunaraq ləğv edildi, neft mədənləri, "milliləşdirilmiş" bütün mülkiyyət əvvəlki sahiblərinə qaytarıldı və müəssisələr üzərində dövlət nəzarəti təşkil edildi. 1919-cu ilin yayında Hökumət neft ixracı ilə əlaqədar xarici şirkətlərlə ticarət müqavilələri bağladı. Neft ixracını artırmaq məqsədilə 1918-ci il dekabrın 10-da Neft Sənayeçiləri Qurultayı Şurası yanında neft və neft məhsullarının satışı üzrə büro yaradıldı.

Digər maraqlı fakt da budur ki, 1919-cu il fevral ayının 5-də Hökumət tərəfindən Azərbaycan dəmir yolunun boşaldılması haqqında qərar qəbul edildi. Həmin qərarda qeyd edilirdi ki, aksiz vergisi ödənilmədiyinə görə Azərbaycan dəmir yollarında saxlanılmış neft məhsullarının sahibləri bu qərar dərc edildikdən sonra beş gün ərzində aksizi ödəyərək yolu boşaltsınlar. Qərarın tələblərinə əməl olunmadığı halda saxlanılmış həmin neft məhsulları müəyyən edilmiş qaydada satılsın. Əldə edilmiş mədaxildən təyin olunmuş aksizlər, həmçinin məhsulun satışına çəkilmiş xərclər, dəmir yolunu tutduğuna görə vurduqları ziyan ödənilərək xəzinənin gəlir hissəsinə daxil edilsin.

Vurğulamaq yerinə düşər ki, Azərbaycanla qonşu olmasına baxmayaraq, Rusiya məhz neft faktoruna görə, yəni neft istehsalına və satışına nəzarəti itirdiyi üçün Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyini, istiqlaliyyətini tanımaq istəmirdi. Rusiya rəsmi qaydada Azərbaycanla iqtisadi əlaqələr qurmaqdan imtina etsə də, qonşu dövlətin Bakının neftinə və neft məhsullarına ehtiyacı çox idi. Məhz bu səbəbdən də Bakı və Həştərxan bolşevikləri dövlətdən gizli yolla Rusiyaya neft və neft məhsulları daşıyırdılar. Bakı və Rusiya arasında dəmir yolu əlaqəsi kəsildiyi üçün yeganə ticarət yolu Xəzər dənizi idi. 1918-ci ilin naviqasiyasının açıldığı gündən iyulun 30-dək Bakıdan Həştərxana 3948 pud neft məhsulları göndərilmişdi. Bu talançılığın qarşısını almaq üçün Azərbaycan hökuməti neft məhsulların istehsalı və daşınması üzərində 1919-cu il 26 may tarixli qərarı ilə ciddi nəzarət yaratdı. Qərara əsasən dənizlə Həştərxana olan yol bağlanmışdı. Əlbəttə, bu, Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyatı üçün heç də əlverişli deyildi.

Qeyd edək ki, neft Azərbaycanda ixracatın əsas mənbəyi olduğundan hökumət onunla əlaqədar iqtisadi əlaqələri bərpa etməyə çalışırdı. Rusiya bazarı respublika üçün müəyyən səbəblərə görə itirildiyindən bütün diqqəti Azərbaycanın dünya bazarına neft ixracına imkan verən Bakı-Batum neft kəmərindən istifadə etməyə yönəltmək lazım gəlirdi. Bu kəmərin taleyi çox mürəkkəb idi. Onun tikintisinə hələ XIX əsrin sonlarında — 1897-ci ildə başlanmış, 1907-ci ilin iyulunda isə başa çatdırılmışdı. Ümumi uzunluğu 830 kilometr olan neft kəməri Zaqafqaziya dəmir yolu boyunca uzanıb gedirdi. Bakı neft sənayeçiləri onun inşasına lap başlanğıcda etiraz etmişdilər. Uzun və gərgin mübarizədən sonra Zaqafqaziya Dəmir Yolu İdarəsinə Bakı-Batum magistral boru xəttini yol boyu inşa etməyə icazə verilmişdi. Amma bu dəfə kəmərlə ağ neftin nəqli nəzərdə tutulduğundan onun inşasına neft sənayeçiləri etiraz etmədilər. Çünki bu halda Bakı neft emalı zavodları sahiblərinə Qara dəniz sahillərində rəqiblər meydana gəlməsi təhlükəsi sovuşur, Bakının mövqeyi neft emalı sənayesi mərkəzi kimi möhkəmlənirdi. Təəssüf ki, sonralar yəni, 1917-ci ilin iyulun 1-də ağ neft kəməri qara neft kəmərinə çevrildi. Azərbaycanın müstəqilliyi elan olunduğu məqamda neft kəməri işləmirdi və Bakı-Batum marşrutu ilə neftin ötürülməsi yalnız 1918-ci il dekabrın 12-də bərpa olundu. Bunun ardınca 1918-ci il dekabrın 26-da Azərbaycan və Gürcüstan arasında "Azərbaycan dəmir yolunun Zəyəm stansiyasından Gürcüstan dəmir yolunun Saloğlu stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları" haqqında tranzit müqaviləsi bağlandı.

Azərbaycan Xalq Cümhuriyyəti xarici iqtisadi siyasətində bütövlükdə əvvəllər qurulmuş iqtisadi əlaqələrin qorunub saxlanılmasına və yeni ölkələrlə səmərəli əlaqələrin yaradılmasına çalışırdı. Bunun üçün ilk növbədə diqqət Azərbaycanın dünyaya tranzit çıxışını təmin edən Gürcüstanla iqtisadi əlaqələrin bərpasına yönəldildi. Belə ki, 1918-ci il dekabrın 26-da Gürcüstanla birillik müddətinə ticarət və nəqliyyat üzrə müqavilə imzalandı və bu müqaviləyə əsasən iki ölkə arasında xarici ticarət kifayət qədər liberallaşdırıldı və Bakı neftinin Batumi üzərindən dünyaya ixracı təmin edildi. Bir illik müddətə bağlanan bu müqaviləyə əsasən, böyük ehtiyac olan məhsulların, bu respublikaların tələbatları çərçivəsində gömrük vergiləri qoyulmadan alınıb-satılmasına, habelə Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacları üçün müəyyən həd həcmində neft, mazut, kerosin və yağların rüsumsuz ixracına icazə verilirdi. Müqavilədə göstərilirdi ki, gürcü əhalisi üçün kerosin buraxılması 1 milyon puddan, neft və neft məhsullarının ümumi satışı isə 20 milyon puddan çox olmamalıdır. Gürcüstanın bəzi məhsullarının (daş kömür, meşə materialları və sair) neftin dəyərinin 1/10 hissəsi həcmində Azərbaycana gömrüksüz satılması nəzərdə tutulurdu. Həmin dövrlərdə Azərbaycan Gürcüstana da neft ixrac etməyə başladı. Neftin bir hissəsi tranzit istifadəyə görə Gürcüstana pulsuz verilir, bir hissəsinin əvəzinə isə ağac kömürü, lobya, kələm, şəkər, avtomobil şini kimi məhsullar alınırdı.

Qeyd etdiyimiz kimi, Azərbaycan neftinin alıcısı ilk illərdə Rusiya idi. Ancaq sonralar Avropa ölkələri də bu sıraya qoşuldu. Belə ki, Gürcüstan yolunun açılması Azərbaycanın digər ölkələrlə də ticarət əlaqələri üçün imkanlar yaratdı. O dövrdə Azərbaycan əsasən Gürcüstan yolu ilə Ukraynadan taxıl idxal edir, Türkiyə və digər Qərb ölkələrinə isə neft və neft məhsulları göndərirdi. Məsələn, İtaliyaya ixrac edilən ağ neft və mazutun əvəzinə bu ölkədən sənaye malları, eləcə də ayaqqabı idxal olunurdu. Habelə ABŞ, Fransa, İngiltərə, Almaniya kimi ölkələrlə də neft ixracı, əvəzində isə sənaye məhsullarının idxalı üzrə müvafiq razılaşmalar əldə edilmişdi. Məsələn, 1920-ci ilin yanvarında Azərbaycan hökuməti ilə ABŞ arasında ticarət müqaviləsi bağlanması haqqında razılaşma əldə edilmişdi. Bağlanması nəzərdə tutulan bu ticarət müqaviləsinə əsasən, Azərbaycan Batum vasitəsilə oraya neft və neft məhsulları (həftədə 1500 ton mazut) göndərməli, əvəzində isə ərzaq məhsulları almalı idi.

Qeyd edək ki, bütünlükdə Azərbaycan Xalq Cümhuriyyətinin ticarət və iqtisadi əlaqələrində barter üsulundan istifadə edilirdi, yəni gətirilən malların əvəzinə neft verilirdi. Belə ki, Amerika, Fransa, İtaliya və digər dövlətlərin istehsalı olan hərbi mallar, telefon aparatları, minik avtomobilləri, paravozlar, sisternalar, ərzaq məhsulları üçün Azərbaycan əsasən neft, pambıq, yun, ipək və gön ilə ödəmə edirdi.

Onu da vurğulamaq lazımdır ki, Rusiyada inqilab nəticəsində Azərbaycan neftinin ixracı nəzərəçarpacaq dərəcədə azaldı. Şimal bazarının bağlanması nəticəsində 1919-cu ildə hasil edilmiş 3,6 milyon ton neftin yalnız 600 min tonu ixrac edilmişdi. Neftin Avropaya göndərilməsi yalnız 1919-cu ilin martında 3 milyon ton neftin ötürülməsini təmin edə bilən 500 kilometrlik Bakı-Batumi neft boru kəmərinin bərpasından, eləcə də Bakı-Culfa dəmir yolunun tikintisinin sürətləndirilməsindən sonra mümkün oldu. Neft ixracının artması ölkəmizdə bütün istehsalat sahələrinin inkişafına təkan verdi.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövr ərzində 1918-ci ildə 3287 yataqdan 185,6 pud (2,96 milyon ton) 1919-cu ildə isə 2066 yataqdan 225,1 pud (3,6 milyon ton), 1920-ci ildə isə 2037 yataqdan 175,1 pud (2,8 milyon ton) neft çıxarılıb. 1919-cu ilin əvvəlinədək dövlətin gəliri 600 milyon manat idi ki, bunun da 400 milyon manatı dolayı vergilərin, xüsusən neft məhsullarının payına düşüb. O illər üçün bu göstərici 30 faiz idi. Büdcənin digər gəlir mənbəyi şərab, tütün və əlbəttə ki, neft üçün olan aksiz vergiləri idi.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Yazı İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda müsabiqəyə təqdim edilir.*